BU GÜNDƏLİK

# Nikki C. Maksvelindir

***ŞƏXSİ VƏ MƏXFİ***

Tapsanız, xahiş edirəm, mükafat qarşılığında MƏNƏ göndərin!

(KƏNAR ADAMLARIN OXUMAĞINA

İCAZƏ VERİLMİR!! ☺)

Rachel Renée Russell

# DORK diaries

## Tales from a NOT-SO-Popular Party Girl

Reyçel Rene Rassel

# NİKKİNİN gündəliyi

ÇOX DA Məşhur Olmayan Bal Qızının Həyatdan Alınmış Hekayələri

QANUN NƏŞRİYYATI

Bu kitabda oxuyacağınız hər şey uydurmadır. Tarixi hadisələrdən, real insan və yerlərdən xəyali şəkildə istifadə edilib. Digər ad, obraz, yer və hadisələr müəllif təxəyyülünün məhsulu olmaqla real hadisə, yer və insanlarla oxşarlığı tamamilə təsadüfi xarakter daşıyır.

**Reyçel Rene Rassel** **NİKKİNİN GÜNDƏLİYİ**
**Çox da məşhur olmayan bal qızının həyatdan alınmış hekayələri**
(Nikkinin Gündəliyi 2)

Janr: uşaq ədəbiyyatı
Yaş qrupu: 12+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 288

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Surxay Hasilov |
| Redaktor: | Hədiyyə Şəfaqət |
| Korrektorlar: | Nigar Abdulla, Şəhla Yarıbəyli |
| Dizaynerlər: | Ramil Akifoğlu / Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-608-89-2

© Qanun Nəşriyyatı, 2021; 2026
© 2010 by Rachel Renee Russell
All rights reserved.

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

Həmişə yanımda olan

anam Dorisə

## TƏŞƏKKÜRLƏR

Bütün Nikki fanatlarına bu kitab seriyasını belə ürəkdən qucaqladıqları üçün. İçinizdəki dəliyə parıldamaq imkanı verməyi unutmayın.

Möhtəşəm redaktorum Liza Abrams, kitablarımıza sərf etdiyin bitib-tükənməz həvəsin və enerjin üçün təşəkkürlər. Bu ecazkar yolda səninlə və içindəki on üç yaşlı qızla birlikdə olduğum üçün çox xoşbəxtəm!

Fədakar incəsənət rəhbərim Liza Veqaya əməyi və yaradıcılığı üçün təşəkkürlər. Xüsusilə də qapıçının bütün işıqları söndürdüyü uzun gecələr üçün.

Mara Anastas, Betani Bak, Bess Brasvel, Pol Krayton və Aladdin/Saymon və Şusterdəki komandamın yerdə qalanına inandıqları üçün təşəkkür.

Yazıçılar Evindəki inanılmaz nümayəndəm Deniel Lazar, həm dost, həm nümayəndəm, həm məsləhətçim, həm müəllimim və hətta terapevtim olduğun

üçün təşəkkürlər. Möhtəşəm arzumun reallaşmağına kömək etdin.

Göndərdiyi elektron məktublarla məni ağlayana kimi güldürən Stefen Bara xüsusi təşəkkür.

Yazıçılar Evində xarici ölkələrdəki müəllif hüquqlarıma nəzarət edən Maya Nikoliç, Sesiliya de la Kampa, Anqarad Koval, Nikkinin dünyanın hər yerində oxunmağına kömək etdiyiniz üçün sağ olun.

Qızım və istedadlı köməkçim Nikki Rassel, bu layihədəki bütün əməklərin üçün təşəkkürlər... Bütün bunları sən olmasan, edə bilməzdim. Minnətdarlığımı necə ifadə edəcəyimi bilmirəm. Sənin anan olduğum üçün çox şanslıyam!

Dürüst və qəddar tənqidçilərim, bacım qızları Ariana Robinson, Mikayla Robinson, Sidney Ceymsə, Kori Ceymsə təşəkkürlər.

## 11 OKTYABR, CÜMƏ

Bütün bunların mənim başıma gəldiyinə inana bilmirəm!
Qızlar üçün vanna otağındayam, sanki DƏLİ OLURAM!
Məktəbdə sağ qalmaqdan başqa YOLUM yoxdur!

Mən YENƏ özümü gizli sevgilim qarşısında AXMAQ vəziyyətinə SALDIM!

Bütün bu bədbəxtliklər azmış kimi, Makkenzi Hollisterin dolabında sıxışıb qalmış kimiyəm.

Vençester şəhər məktəbinin ən məşhur qızı və modabazın yekəsidir! Onu məktəbin "Birinci xanımı" çağırmaq isə AXMAQLIQDIR!

O, parlaq manikürlü dırnaqları, xüsusi dizaynlı cinsləri və dikdaban ayaqqabıları ilə QATİL KÖPƏKBALIĞINDAN başqa bir şey DEYİL!
Amma nədənsə hamı ona SİTAYİŞ EDİR!




Makkenzi ilə YOLA GETMİRİK! Fikrimcə, bunun bir səbəbi ola bilər:




Onun məndən ZƏHLƏSİ GEDİR!

O, həmişə mənim dalımca danışır və mənim dəb anlayışımın supermendən o tərəfə keçmədiyini deyir: guya onun kimi geyinirmişəm! (Supermenin bütün